**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ROBERT QREYVS YARADICILIĞINDA MİFOLOGİYANIN ƏDƏBİ-BƏDİİ TƏCƏSSÜM XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Aysel Məmməd qızı Həmidova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Universitetinin "Tərcümə və filologiya" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Qorxmaz Həsi oğlu Quliyev**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Əsgər Məmməd oğlu Zeynalov**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Əzizə Qurban qızı Məmmədova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Leyli Əliheydər qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: filologiya elmləri doktoru, professor
________________ **Azad Yəhya oğlu Məmmədov**

Dissertasiya şurasının
elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
________________ **İradə Nadir qızı Sərdarova**

Elmi seminarın
sədri: filologiya elmləri doktoru, professor
________________ **Şahin Həmid oğlu Xəlilli**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Avropa ədəbiyyatında, xüsusilə İntibah dövründən başlayaraq mifologiyaya həmişə dərin maraq müşahidə olunmuşdur. Lakin bu tendensiya XX əsrdə son dərəcə güclənmişdir. İbtidai icma dövründə insanın dünyanı dərk etməsinin ifadəsi olan bu fenomenə – mifə qayıdışın əsas səbəbi şüurun təbiəti ilə əlaqədar olaraq, müasir dövrdə həm humanitar fikrin, həm də müxtəlif təbiət elmlərinin mifologiyaya müraciəti, dünya və insan fenomenlərinin səbəb-nəticə əlaqələri əsasında öyrənilməsi ilə bağlıdır: bəşər övladı cəmiyyətin indiki durumunun səbəblərini dünyanı dərkin ilk cücərtilərinin formalaşdığı dövrdə axtarır. Bununla yanaşı, məlum olur ki, ibtidai icma dövründə formalaşmış mif misli görünməmiş plastiklik nümayiş etdirir. Hətta yaxın keçmişdə qeyd-şərtsiz həqiqət təsiri bağışlayan fenomen zaman keçdikcə mifə çevrilir və nəticədə müəyyən yeni-yeni sosial miflər meydana gəlir. Bu baxımdan fransız alimi R.Bartın *"hər şey mif ola bilər"*[1] deyimində böyük həqiqət var, çünki mif insanın dünyanı dərk etməsi üsulu olmaqla yanaşı, həm də aydınlanmadır, yəni günlərin bir günü fərd (toplum) bu gün həqiqət kimi qəbul etdiyi bir şeyin həqiqət olmamasını üzə çıxarır. Bu isə şübhəsiz ki, başdan-başa uydurmaya əsaslanan ədəbiyyatın və mifin genetik bağlılığından xəbər verir.

XX əsr ədəbi-bədii fikrində mifə qayıdışın iki əsas səbəbi var: birincisi, insan daima öz düşüncə tərzinin genezisini üzə çıxarmağa cəhd edir və ikincisi, XX əsr insanı dünyanı dərkin bütün sahələrində misli görünməmiş uğurlara nail olmasına baxmayaraq, paradoksal şəkildə ibtidai icma cəmiyyətinin aciz insanına bənzəyir. Bu, ilk növbədə XX əsrdə total xarakter kəsb edən özgələşmə ilə bağlıdır: özgələşmiş insanın şüurunda ilk baxışdan bir-birini təkzib etməli olan bu iki konsepsiya (uydurmaya inanmaq olmaz-uydurmaya inanmaq olar) birləşir, vəhdət təşkil edir. İntəhası, ibtidai insan bir tərəfdən mifi uydurur, digər tərəfdən sidq-ürəkdən uydurduğuna inanır. Müasir insan isə həm keçmiş nəsillərdən ona miras qalmış,

---

[1] Barths, R. Mythologies / R.Barths. – The Noonday Press-New York Farrar, Straus & Gıroux. – 1991. – p.107

həm də yeni dövrdə yaranmış miflərə bir tərəfdən inanır, bir tərəfdən isə onların hamısını şübhə altına alır.

XX əsrin spesifik bədii hadisəsi kimi mifologiyanın paradiqması XIX əsrin sonunda alman mütəfəkkirləri F.Nitşe və R.Vaqner tərəfindən müəyyən olunmuşdur, məhz onlar müasir incəsənətin, o cümlədən ədəbiyyatın əsas magistral inkişaf yolunu "mifdən mifə" hərəkət kimi müəyyənləşdirdilər, ənənəvi mifologiyadan yeni mif yaradıcılığına yol açdılar.

XX əsr ədəbiyyatında mifologiyaya müraciət belə bir həqiqəti də üzə çıxartdı ki, bu konsepsiya yalnız o zaman öz missiyasını uğurla yerinə yetirmiş olar ki, o bir tərəfdən universal, digər tərəfdən lokal, bir tərəfdən fövqəlzaman, digər tərəfdən müasir, bir tərəfdən mücərrəd, digər tərəfdən konkret olsun. Mifologiyanın konkret zaman kontekstində ortaya qoyduğu bu problemi hər bir sənətkar özünəməxsus üsul və vasitələrlə həyata keçirməyə cəhd etmişdir. Belə ki, C.Coys antik dövrdən tutmuş zamanımıza qədər bütün bəşər tarixini rişxənd obyektinə çevirməklə, V.B.Yeyts kelt mifologiyasının izlərini XX əsrin yaşam və düşüncə tərzində üzə çıxarmaqla, Kafka və Apdayk mənəvi ağrının cismani, cismani ağrının isə mənəvi ağrıya çevrilməsi dialektikasını təsvir etməklə məqsədlərinə nail olmağa can atırdılar.

Bütün uzun yaradıcılıq yolu boyu mütəmadi şəkildə mifologiyaya müraciət edən R.Qreyvs bu məqsədinə nail olmaq üçün problemə müxtəlif görmə bucaqlarından yanaşmağı üstün tutur. Belə ki, müəllif antik yunan mifologiyasına əsaslı şəkildə "baş vurmaq"la yanaşı, onun bütün ideoloji-bədii görüşlərin əsasını təşkil edən İlahə Qadın konsepsiyasını əsaslandırmaq üçün mifdən əvvəlki mifə – matriarxat dövrünün mifologiyasına müraciət edir, german mifologiyasının semantik imkanlarını səfərbər edir.

Mövzunun işlənmə dərəcəsi ilə bağlı qeyd etmək lazımdır ki, Azərbaycan elmində professor Qorxmaz Quliyevin "XX əsr Amerika ədəbiyyatşünaslığında aparıcı cərəyanlar"[2] adlı kitabında R.Qreyvs yaradıcılığına yer ayrılmışdır. Həmin kitabda poeziya, ayın ilahiləşdirilməsi, Bəyaz İlahə konsepsiyası barədə məlumat əks

[2] Quliyev, Q.H. XX əsr Amerika ədəbiyyatşünaslığında aparıcı cərəyanlar / Q.Quliyev. – Bakı: Çaşıoğlu, – 2011. – 208 s.

etdirilmişdir. Bundan başqa, şair Firudin Həmidli Robert Qreyvsin "Şaxtalı gecə" şeirinin Azərbaycan dilinə tərcümə etmişdir. Dünya ədəbiyyatında Krım Universitetinin filologiya fakültəsinin dekanı Ediye Çaparova Kərimovna "XX əsr müasir ədəbiyyatşünaslıq sahəsində R.Qreyvsin mifoloji konsepsiyası" adlı dissertasiya və onun əsasında çap olunmuş məqalə və tezislərdə sənətkarın həyat və yaradıcılığı təhlilə cəlb edilmişdir. İngilis dilli mənbələrdən Robert Qreyvsin bioqrafı Seymur Smit sənətkarın bütün həyat və yaradıcılığı haqqında ən dolğun və ətraflı məlumatı kitablarında cəmləşdirmişdir.

Bütün XX əsr ərzində ədəbi-bədii inkişafın əsas istiqamətlərindən olan R.Qreyvsin təmsil etdiyi mifologiyaya aramsız müraciət müasir postmodernist dövrdə nəinki səngiməmişdir, əksinə get-gedə güclənir və şaxələnir. Bütün bunlar sübut edir ki, XX əsrdə mifologiyanın təcəssüm xüsusiyyətlərinin tədqiqi dissertasiya işinin əsas vəzifələrdən birini təşkil edir.

**Tədqiqatın obyekti və predmeti.** XX əsr ingilis ədəbiyyatında mifologiyaya müraciət mövcud dissertasiya işinin obyektini, onun R.Qreyvs yaradıcılığında təcəssüm xüsusiyyətləri predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi ingilis yazıçısı və şairi R.Qreyvsin yaradıcılığında mifoloji düşüncə tərzinin universal ədəbi-bədii xüsusiyyətlərini araşdırıb onların təcəssüm qanunauyğunluqlarını üzə çıxarmaqdır.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

– Dünyanın ilk dərk olunma forması kimi mifin təbiətinə xas olan əsas cəhətləri araşdırmaq;

– Dünyanın mifopoetik dərkinin zaman, məkan, arxe kimi arxaik modelləri təhlil və şərh olunaraq təqdim etmək;

– Üzə çıxarılan modellərin müasir ingilis ədəbi-bədii kontekstində interpretasiyasının poetik mexanizmini təhlil etmək;

– XX əsrdə dünya ədəbi-estetik fikrində mifik təfəkkürə müraciətin ədəbi-tarixi və estetik səbəblərini üzə çıxarmaq;

– Yeni dövr ingilis ədəbiyyatında mifə müraciətin qanunauyğunluqları müəyyən etmək;

– R.Qreyvsin yaradıcılığında Bəyaz İlahə konsepsiyasının simvolikası və mifik düşüncə ilə bağlılığının bədii-fəlsəfi mahiyyəti analitik təhlilə cəlb etmək;

– R.Qreyvsin “Yunan mifləri” əsərində antik yunan miflərinin semantik və simvolik şərhinin müasir insan psixoloji ovqatı və mental düşüncə tərzi ilə müqayisəli təhlili tədqiq etmək;

– “Mən Klavdi” və “Tanrı Klavdi” romanlarında trikster, mədəni qəhrəman arxetiplərinin dialektikası araşdırmaya cəlb etmək;

– Yazıçının tarixi romanlarında mifoloji qəhrəman simvolikası tarixilik və müasirlik kontekstində analitik təhlilin predmetinə çevirmək;

– R.Qreyvsin “Homerin qızı” romanında modernizmdən postmodernizmə keçid dövrünün xüsusiyyətləri müəyyən etmək.

**Tədqiqat metodları.** Dissertasiyanın yazılması prosesində müqayisəli təhlil, sistemli yanaşma, induktiv, deduktiv, analiz və sintez, təsnifat metodlarından tədqiqatın gedişatına uyğun istifadə olunmuşdur. Dissertasiyada müqayisə müxtəlif istiqamətlərdə – müxtəlif bölgələrin, xalqların mifologiyalarının, müxtəlif tarixi dövrlərin, müxtəlif sənətkarların yaradıcılıqlarının mifoloji rakursdan müqayisəsi yönümündə həyata keçirilmiş və nəticədə ingilis ədəbi prosesində mifologiyaya müraciətin dinamik mənzərəsi öz əksini tapmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Dünyanın dərk olunması forması kimi mifin rolu müəyyənləşdirilmişdir.

– İngilis ədəbiyyatının təkamülünün müxtəlif dövrlərində mifə müraciət spesifikdir.

– Nüvəsini matriarxat (Bəyaz İlahə) təşkil edən german mifologiyasının R.Qreyvsin yaradıcılığında təcəssümü təhlilə cəlb edilmişdir.

– R.Qreyvsin tarixi romanlarında mifologiyaya müraciətin xüsusiyyətləri üzə çıxarılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Humanitar elm sahələrində ibtidai icma cəmiyyətinin ilk tayfa forması olan matriarxat kifayət qədər araşdırılsa da, onun bədii fikirdə təcəssüm xüsusiyyətləri hələ kifayət qədər tədqiq olunmamışdır. XX əsr ingilis ədəbiyyatında

mifologiyaya müraciətin spesifikasının məhz bu rakursdan araşdırılması mövcud dissertasiyanın elmi yeniliyi hesab oluna bilər. Onu da qeyd etmək lazımdır ki, müasir dünya ədəbiyyatında özünəməxsus yeri olan R.Qreyvsin yaradıcılığının elmi dövriyyəyə daxil edilməsi ilk dəfə həyata keçirilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi bir sıra aspektlərdə elmi və nəzəri əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl R.Qreyvsin yaradıcılığının timsalında müxtəlif dövrlərdə və müxtəlif xalqların mədəni həyatında formalaşan miflərin arasında ümumi və fərqli cəhətləri, həmçinin onların ədəbi-bədii fikirdə əbədi yaşarlılığının səbəblərini üzə çıxarmaq, onları nəzəri cəhətdən ümumiləşdirmək imkanı əldə olunur. İkincisi, R.Qreyvsin əsərlərinin təhlili əsasında mifologiyada əvvəlki, matriarxata əsaslanan, bu gün implisit xarakterə malik mifologiyanın izlərini müəyyənləşdirmək mümkün olur.

Tədqiqatdan filologiya fakültələrində müasir ingilis ədəbiyyatı, ədəbiyyat və mifologiya sahəsində dərs vəsaiti kimi istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi**. Tədqiqat işinin mövzusu Azərbaycan Universitetinin "Azərbaycan dili və ədəbiyyat" kafedrasında müəyyənləşdirilmiş, Azərbaycan Universitetinin Elmi Şurasında və Azərbaycan Respublikasının Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Filologiya Problemləri üzrə Elmi Şurasında təsdiq olunmuşdur.

Tədqiqat işinin əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, o cümlədən beynəlxalq xülasələndirmə və indekslənmə sisteminə daxil olan elmi nəşrlərdə, ölkə daxilində və xaricində keçirilən respublika və beynəlxalq əhəmiyyətli konfransların materiallarında işıq üzü görmüşdür.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Universitetinin "Tərcümə və filologiya" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından

ibarətdir. Giriş hissə 5 səhifə, 9129 işarə, I fəsil 27 səhifə, 52718 işarə, II fəsil 34 səhifə, 67639 işarə, III fəsil 55 səhifə, 108541 işarə, nəticə 3 səhifə, 4346 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 242373 işarədir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, obyekti və predmeti, problemin öyrənilmə səviyyəsi şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri, əsas müddəaları müəyyənləşdirilmişdir. Həmçinin, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, elmi fərziyyəsi, elmi yeniliyi göstərilmişdir. Tədqiqatın aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiyanın **"Mif və onun nəzəriyyəsi"** adlanan **I fəsli** iki paraqrafdan ibarətdir. I fəslin ***"Mif təbiətin, dünyanın dərk edilməsi forması kimi"*** adlı birinci paraqrafında göstərilir ki, keçmişin müəmmalı predmetinə, nostalgiyanın əsasına çevrilərək rasionallığa, idraka, sübuta, dəqiqliyə, aydınlığa, obyektivliyə əsaslanan elmlə müqayisədə dərk etmədiklərimizin, fantaziyalarımızın ilkin məhsulu olan mif qaranlıq əsrlərin mirası təəssüratını bağışlayır.[3] Məlumdur ki, mif ibtidai insanın şüuru üçün səciyyəvi olan gerçəkliyin tamamilə real təsəvvür olunan konkret-hissi vasitələrlə şəxslərə, canlı varlıqlara çevrilməsinin sinkretik əksidir. Qədim Yunanıstanda mifi təbiət qüvvələrinin canlandırılması yaxud ictimai hadisələr kimi şərh etmək meylləri mövcud olsa da, XX əsrdə insana və cəmiyyətin tərəqqisinə qarşı yönəlmiş miflər yaratmaq cəhdləri müşahidə olunur. Faşizm ideologiyasının əsasında faktiki olaraq mif durur. Lakin öz mahiyyəti etibarilə, elmə qədərki dünyaduyum və dünyanıdərk forması olan, xalq yaradıcılığının stixiyası kimi meydana gələn mif insan şüurunun oyanmasından xəbər verir. Antik incəsənətin haqqında danışarkən Aristotel belə hesab edirdi ki, mif faciənin fabulasını təşkil edir. Yunan və xristian mifləri İntibah mədəniyyətinin və klassisist incəsənətin yaranmasında mühüm rol oynamışlar. Levi-Strossun əsərləri mifin strukturunun spesifik cəhətlərini üzə çıxarmaqda böyük əhəmiyyətə malikdir. Qərbdə bədii

[3] Хюбнер, К. Истина мифа / К.Хюбнер. – Москва: Республика. – 1996. –448 с.

yaradıcılığı şüursuz və bütünlüklə akt kimi nəzərdən keçirən bir sıra nəzəriyyələr mifi bütünlüklə mif yaradıcılığı ilə eyniləşdirirlər.

Bu halda incəsənətdə həyatın əksi yeni gerçəkliyi yaradan subyektin yaradıcılıq aktı ilə əvəz olunur. Mifi gündəlik şüur nəzər nöqtəsindən nəzərdən keçirmək cəhdləri baş verir. Bu halda mif məlum, lakin hələ dərk olunmamış fenomen kimi, səbəbi bilinməyən hadisə kimi təqdim olunur.

Bəzi tədqiqatçılar mifi estetik reallıq hesab edirlər və bədii nümunəni obyektivliyin və subyektivliyin, intellektuallığın və emosionallığın, ardıcıllığın və reseptivliyin vəhdəti hesab edirlər.

Bu baxımdan mifoloji zaman, mifoloji məkan anlayışları mifin tədqiq olunmasında mühüm əhəmiyyət kəsb edirlər. Burada qeyd olunur ki, Zaman kultu müxtəlif mifoloji sistemlərdə müxtəlif obrazlar vasitəsilə ifadə edilmişdir: yunan mifologiyasında ağsaqqal müdrik qoca zamanın şəxsləndirilmiş obrazı Xronosu təcəssüm etdirir. Roma mifologiyasında Saturn, İran mifologiyasında Zervan, tale ilahələri yunanlarda moyralar, romalılarda parkalar, skandinaviyalılarda nornlar, təqvim allahları Osiris, Dionis və b. mifoloji dövrdə insanların zaman haqqında təsəvvürlərindən xəbər verən mifoloji obrazlardır. K.Xubnerin, M.Eliadeyin, J.Le Qoffun, N.Kurçanovun, E.M.Meletinskinin tədqiqatlarına müraciət olunaraq belə qənaətə gəlinir ki, XX əsr isə zaman məfhumuna yeni qavrama, yeni məna çaları gətirdi. Dünyanın klassik üçölçülü səthi mexanizmi A.Enşteynin dördölçülü mexanizmi ilə əvəz olundu. Bu dünya həcmliliyi, kələ-kötürlülüyü özündə ehtiva edib zaman-məkan ilə bağlı bütün mümkün konsepsiya və modellərin nisbilik nəzəriyyəsindən çıxış edir: açıq (sonsuzluğa) və qapalı, yekcins və müxtəlif tərkibli, xətti və qeyri-xətti, statik və dinamik, substantiv və relyativ, birlaylı və çoxlaylı və s. Belə demək olar ki, şüurumuzdakı zaman mifik zamanın xüsusiyyətləri ilə oxşarlıq təşkil edir, mifoloji və subyektiv zaman "konseptual" zamanın növləri hesab oluna bilər. Bir daha qeyd etmək lazımdır ki, insan şüurun və yaddaşın intellektual fəaliyyəti nəticəsində müxtəlif zaman laylarını bir-biri ilə əlaqələndirə bilir və zamanı müxtəlif yönlü, çoxölçülü, müxtəlif tərkibli hesab etməklə onun məzmununu tamamlayır.

Mifoloji məkanla bağlı isə qeyd olunur ki, arxaik dövrdə "məkan" anlayışını ifadə edən söz demək olar ki, yox idi. Mifoloji təfəkkürdə məkanın keyfiyyət baxımından müxtəlif səciyyə daşıması onunla əlaqədardır ki, o, canlandırılmış və ruha malik olmuşdur.

***"Müxtəlif dövrlərdə mifin ideya-estetik qaynaqları"*** adlı I fəslin ikinci paraqrafında faktiki olaraq mifologiyanın tarixi inkişaf prosesi kontekstində mifin hansı vasitələrlə şərh olunması öz əksini tapmışdır.

Qeyd olunur ki, ibtidai mifologiya bir neçə inkişaf mərhələsi keçmişdir. İlk dövrlərdə icma-tayfa dəyəri fiziki cisimlərdən təcrid olunmur. Mifologiyanın bu dövrü fetişizm (fransız dilində fetiş "büt") adlandırıldı. Lakin tədricən fiziki cismin daxili mənası onun özündən ayrılmağa başladı, bu və ya digər dərəcədə müstəqil məna kəsb etdi. Müasir elmdə bu, animizm kimi qeydə alınmışdır (animus latın dilində "ruh" deməkdir.)

İnsan təfəkkürünün inkişafı nəticəsində animizmin özü də daha müstəqil formalar kəsb etdilər: mifologiyada müxtəlif dərəcədə ümumiləşdirilmiş və müxtəlif dərəcədə müstəqil olan demonlar və allahlar yarandılar. Animizmin son dövrü qəhrəmanların obrazlarının yaranmasına səbəb oldu. Herakl və Tesey buna misal ola bilərlər. Onlar təbiətin qorxunc, hələ dərk olunmamış qüvvələrini təcəssüm edən müxtəlif azmanlarla (titanlarla, təpəgözlərə) savaşa girişirlər.

R.Smitə görə, *"mif ritualdan asılıdır, mifologiya dinin mühüm tərkib hissəsi olmamışdır, çünki dinin ardıcılları üçün müqəddəs vasitələrlə təsdiq olunmamış və insanları bir-birinə bağlamamışdır. Müəyyən müqəddəslərlə və dini mərasimlərlə bağlı olan yalnız kult aparatının bir hissəsi idilər. Onlar yalnız təxəyyülün oyanmasını və iştirak edənlərin fəaliyyətini təmin edirdilər*"[4].

İcma-tayfa mifologiyası özünün birbaşa sadəlövh görünüşündə qüvvədən düşür və icma-tayfa formasiyasının məhvi ilə yoxa çıxır. İcma-tayfa quruluşu quldarlıq quruluşu ilə əvəz olunur. Quldarlıq quruluşu əqli əməyin fiziki əməkdən təcrid olunması ilə xarakterizə olunur. Bu isə ilkin mifologiyanın əqli mövqedən tənqid olunması və ondan ancaq alleqoriya kimi istifadə olunmasına səbəb oldu. Neoplatonizm dövründə (eramızın II-IV əsrlər) antik fəlsəfədə qədim

---

[4] Хюбнер, К. Истина мифа / К.Хюбнер. – Москва: Республика. – 1996. – с. 89.

zamanların bərpası kimi qədim mifologiya da bərpa olunur. Lakin bu dövrdə qədim mifologiyadan əsər-əlamət qalmamışdı və onlar faktiki olaraq dialektik kateqoriyalar sistemi kimi təqdim olunurdular. Orta əsrlərdə mütləq monoteizmlə əlaqədar olaraq antik allahlar və qəhrəmanlar cin-şeytan kimi dəyərləndirilirlər. Mifin psixoloji şərhi ruhi-tarixi aspektdə subyektivliyin kəşfinə səbəb oldu – R.Dekart (1596-1650) subyekt-obyekt fərqlənməsi istiqamətində insanın daxili aləmi məsələsini ortaya qoydu.

Ruhi subyektivliyin dolğun fəlsəfi şərhinin ilk nümunəsi öz əksini F.Nitşenin "Musiqi ruhundan faciənin doğulması" (1872) əsərində tapır: "*Metafiziki ilkin iradə hər hansı bir varlığın əsasıdır. İradə hadisələrin rəngarəngliyini örtsə də, onların hər birində cürbəcür üsullarla təcəssümünü tapır. Onların hər birində əbədi irəli canatma yaşayır və yanır. Bu canatma sönməz olduğuna görə insana sonsuz əzablar verir, lakin eyni zamanda nəşənin mənbəyinə çevrilir. Yalnız bu estetik fenomendə dünya özünə haqq qazandırır. Hər bir dağılma, parçalanma yeni həyat üçün əsas yaradır: Dionisin difirambları bununla bağlıdır*"[5]. Transendentalizm mifin tamamilə fərqli şərhini ortaya qoyur: onun nümayəndələrinin fikrincə, hətta inkişaf etməmiş mif aprior zəruriliyə malik şüur formasına malikdir. Bu şərhin yeganə formasını E.Kassirer (1874-1945) vermişdir. C.V.F.Hegel (1770-1831) və F.Şellinq (1775-1854) onun sələfləri hesab olunurlar. Maarifçilik dövründə mifologiya sadəlövh nağıl, romantizm çağında isə mifologiya sırf məntiqi mənzərə hesab olunurlar. XIX əsrin ikinci yarısında mifologiya sensualizm və spiritualizm nəzər nöqtəsindən, XX əsrdə isə insan şüurunun nəzəriyyəsi baxımından şərh olunmuşdur. Müasir ədəbiyyatda mifə müraciətin köklü şəkildə dəyişməsi mifə qarşı barışıq mövqeyindən irəli gəlirdi. F.Nitşenin (1844-1900), A.Berqsonun (1859-1941) mifə əbədi həyat prinsipindən yanaşması, R.Vaqnerin (1813-1883) musiqi və onun mifinin eyni təbiətə malik olması, Z.Freydin (1856-1939) və K.Q.Yunqun (1875-1961) psixoanaliz nəzəriyyələri mifə yenidən qayıdışa təkan verən amillər sırasında idi. Onlar mifologiyaya daha

[5] Nietzsche, F. The birth of tragedy out of the spirit of music / F.Nietzsche. translated by Ian Johnson. – Nanaimo, British Columbia Canada: Vancouver Island University. – 2008, June. – p.11

çox fəlsəfi mövqedən yanaşmalarına baxmayaraq, irəli sürülən nəzəriyyələr mifə, mifologiyaya marağın kəskin şəkildə artmasına səbəb oldu. Tarixən miflərin müxtəlif şərhləri onlarda yalnız nağılı deyil, həmçinin gerçəkliyin müəyyən təcrübəsini üzə çıxarmaq əsasında təsnif edilməyə cəhd olunmuşdur.

Dissertasiya işinin **"Yeni dövrdə ədəbiyyatda mifə müraciətin spesifikası"** adlı **II fəsli** iki paraqrafdan ibarətdir. II fəslin ***"İngilis ədəbiyyatında mifin təcəssüm xüsusiyyətləri"*** adlanan birinci paraqrafında göstərilir ki, Birinci Dünya müharibəsindən sonra istər qərb sivilizasiyasının diktə etdiyi universal, istərsə də İngilis cəmiyyətində formalaşmış lokal mənəvi-mədəni dəyərlərə inamsızlıq ədəbi-bədii fikrin pafosunu təşkil edirdi. İngilis ədəbiyyatında modernist yazıçılar dərk edirdilər ki, parçalanmış, fraqmentar çağdaş gerçəkliyə "forma və məzmun" vermək üçün mifologiyanın inteqrasiyası, ona bu və ya digər şəkildə yenidən müraciət etmək vacibdir. Ezra Paund (1885-1972), Tomas Sternz Eliot (1888-1965), Ceyms Oqastin Aloyşes Coys (1882-1941), Uilyam Batler Yeyts (1862-1939), David Herbert Riçards Lorens (1885-1930), Hilda Dulitl (1886-1961) və b. ədəbi-bədii nümunələrində miflərdən istifadə etməklə, əslində, bu dövrün klassik çalarını önə çıxarırdılar. Onlar antik miflərin çağdaş sivilizasiya ilə əlaqələrini müşahidə edirlər və mifə məntiqi nöqteyi-nəzərindən yanaşaraq, onu məsxərəyə qoyur, gülüş hədəfinə çevirirlər. Beləcə, mif əsl dəyərindən məhrum olur. Onlar üçün mif yararsız və ölü hesab olunurdu. Mifə bu cür yanaşma klassik ənənənin dəyərlərini bərpa edə bilməz və bəşəriyyəti mənəvi deqradasiyaya sürükləyər. Beləliklə, cəmiyyətin yeni formasını yaratmaq zərurəti önə çıxır. Modernist yazıçılar çağdaş dövrə cavab olaraq, şərti ədəbi formaları alt-üst etdilər. Onlar cəmiyyətdə müşahidə etdikləri durumu öz yaradıcılıqlarına təcəssüm etdirməyə başladılar.

İngilis-amerikan modernist ədəbiyyatın görkəmli nümayəndəsi şair, tənqidçi T.S.Eliotun yaradıcılığının ali əsasında mif dayanır. O, əsas diqqətini əsas miflə üzvi vəhdət təşkil edən rituala yönəltmişdir. Onun "Məbəddə qətl" adlı dramı keçən əsrin 30-cu illərində nəzmlə qələmə alınmışdır. Əsərdə T.Eliot bir növ Şekspirin dövrünə qayıdır və burada ritual məsələsinə toxunaraq vurğulayır ki, o məbəddə qətl

hadisəsini nəzmlə yazmaqla şeirin ritmi ilə ayinin ritmini qaytarmaq istəyir. Əsərdən çıxan nəticə baxımından qeyd etmək olar ki, Eliot dinə XX əsrin baxışı ilə, problemləri ilə baxırdı.

II fəslin ***"Robert Qreyvsin dünyaya baxışı və yaradıcılıq xüsusiyyətləri"*** adlanan ikinci paraqrafında adından da göründüyü kimi, Robert Qreyvsin həyat yolu araşdırılır. Burada qeyd olunur ki, İngiltərədə doğulub boya-başa çatmış sənətkarın ədəbi-bədii yaradıcılığının dörddə üç hissəsi onun Bəyaz İlahə konsepsiyasına əsaslanır, bu konseptual obraz onun əsərlərində bu və ya digər şəkildə təcəssüm olunur. Bu da onun tarixöncəsi – german-skandinav və bir çox dünya mifologiyasına marağına, müraciətinə əsaslanır. Robert Qreyvsin dünya xalqlarının mifologiyası, poeziya, tarixöncəsi dövrlə yaxından maraqlanması ilk öncə onun ailəsindən, valideynlərindən qaynaqlanır. Anasının puritan inanclara malik olması, atasının kelt poeziyasına və mifologiyasına olan sevgisi R.Qreyvsin bəşər cəmiyyətinin matriarxat dövrünü yüksək dəyərləndirməsinə və bu hissin onun dünyaya olan prinsipial münasibətinə dərin təsir göstərməsinə səbəb olmuşdur. Bununla bağlı sənətkar "Mammon" əsərində (1965) qeyd edir: *"Düşünürəm ki, son üç minillikdə ictimai-siyasi qarışıqlığın əsas səbəbi kişi amilinin qadına qarşı basqısı, kişi intellektinin qadın intuisiyası üzərində təntənəsi ilə əlaqədardır."*[6]

R.Qreyvs tarixöncəsi miflərə müraciət edərkən rituallar onun diqqət mərkəzində olmuşdur. Onun fikrincə, sözlə ifadə olunan ritualIarda təhriflərə yol verilmiş, onlar tarixi şəraitə uyğun şərh olunmuş və oxuculara mifdəki hadisələr gerçəklik kimi inandırılaraq təqdim edilmişdir. Qreyvs də bu axından kənarda qalmamış, mifə müasir dövrün aspektindən yanaşmış, yarı gerçək, yarı oyun şəklində rekonstruksiya edərək onların üzərində işləmişdir. Robert Qreyvsin poeziyasına və tənqidinə dair ilk əhatəli şəkildə təhlil amerikalı yazıçı, tənqidçi professor Duqlas Deyin (1932-2004) "Swifter than reason" ("Ağıldan daha sürətli") (1968) əsərində verilmişdir. Əsər sənətkarın 1916-cı ildəki ilk səylərindən tutmuş ən son kolleksiyasına qədər, eləcə də onun tənqidi yazılarından istifadə

[6] Graves, R. Mammon and Black Goddess / R.Graves. – Littlehampton Book Services Ltd. – 1965. – p.47

edərək Qreyvsin ədəbi fəaliyyətinin ən mühüm aspektlərinin əsaslı və vacib araşdırmasını təmin edir. Şeir və tənqidi yazılarla yanaşı, Duqlas Dey “Hər şeyə əlvida”, “Bəyaz İlahə” və “Yunan mifləri” əsərlərinə daha çox diqqət yetirmişdir. Müəllif R.Qreyvsin ədəbi-bədii yaradıcılığını dörd mərhələyə bölür:

– Birinci mərhələ (1916-1923) Qreyvsin gənclik illərini, I Dünya müharibəsi haqqında şeirlərini əhatə edir. Onun yaradıcılığının əsas ifadə forması poeziya olmuş, "Seçilmiş Şeirlər" toplusu “Penguin Poets”də nəşr olunmuşdur.

– İkinci mərhələ (1923-1926) Qreyvsin din, fəlsəfə və psixologiya ilə bağlı bir sıra problemləri soyuqqanlı və mücərrəd şəkildə araşdırması ilə bağlıdır. Onun “qaçış” xarakterli şeirlərində emosionallıqdan qaçmağa çalışdığını görmək mümkündür.

– Üçüncü mərhələ (1926-1938) onun Laura Ridinqlə ədəbi ortaqlığı dövrüdür. O, Qreyvsi öz aqressivliyini və fəlsəfi “boşboğazlıqları”nı cilovlamağa və bunun əvəzinə şəxsi mövzularda yazılmış qısa istehzalı şeirlərə diqqət yetirməyə sövq edir.

– Dördüncü mərhələni (1938-1985) “mifoloji dövr” adlandırmaq olar. Yazıçı qədim yunan, Roma miflərini, eləcə də dünya miflərini daha yaxından öyrənmiş, onlara özünəməxsus şərhlərini, yanaşmasını ortaya qoymuşdur.

R.Qreyvsin həyat və yaradıcılığı ilə bağlı oxşar təsnifatı irland ədəbi tənqidçisi akademik Denis Donaq (1928-2021) vermişdir. Onun fikrincə, Qreyvsin həyatı üç mərhələdən ibarətdir və həmin mərhələləri “Bütün bunlar”, “Laura Ridinqlə illər”, “Muzaya xidmətim” adlandırmışdır.

R.Qreyvsin “Bağırtı” hekayəsinin istər adı, istərsə də məzmunu ilə tanış olduqda Edvard Munkun (1863-1944) “Fəryad” (qışqırıq, bağırtı və s. tərcümə variantları da mövcuddur) əsərini xatırlamamaq mümkün deyil. Hər iki əsərdə “bağırtı” simvolik obraz kimi təcəssüm olunur. “Ekspressionizm”in görkəmli nümayəndəsi E.Munkun yaradıcılığında həyəcan, melanxoliya, tənhalıq və s. kimi ekzistensial mövzuların aparıcı yer tutması və məhz bu əsərdə həmin hisslərin vəhdət təşkil etməsi onun bütün dövrlərdə öz aktuallığını qoruyub saxlamasına imkan vermişdir. R.Qreyvsin “Yeni Kritdə yeddi gün” və C.Oruellin “1984” əsərləri arasında müvafiq

oxşarlıqlar var. Hər ikisinin 1949-cu ildə nəşr olunmasından başqa, toxunduqları mövzular da bir-biri ilə uyğundur. Belə ki, hər ikisində də müharibədən sonrakı sosial gerçəkliyə tənqidi cavab olaraq futurist cəmiyyət təsvir olunur. Hər ikisində də müharibədən sonra fərdlərin daha sərt nəzarəti özünü göstərir. "1984" əsərində bu nəzarət Böyük Qardaş tərəfindən, "Yeni Kritdə yeddi gün" əsərində isə Böyük İlahə tərəfindən icra edilir.

Dissertasiyanın **"Robert Qreyvsin yaradıcılığında yunan və german mifologiyası"** adlanan **III fəsli** dörd paraqrafa bölünür. Birinci paraqraf ***"R.Qreyvsin yaradıcılığında german mifologiyasına əsaslanan Bəyaz İlahə konseptual obrazı"*** adlanır və burada hər şeydən əvvəl german-skandinav mifologiyası, dini germandilli xalqların (anqllar, saksonlar, normanlar, danlar və digərləri) miflərinin sənətkarın yaradıcılığında təcəssüm xüsusiyyətləri araşdırılır. Sənətkarın yaradıcılığında Bəyaz İlahə konseptual obrazının təhlili və araşdırılması ilk baxışdan oxucuda ciddi elmi faktlar illüziyası yaradır. Ola bilsin, yazıçı bir zamanlar miflərin müqayisəli araşdırılması, İlahə kultu barədə hansısa naməlum məqamları üzə çıxarmaq məqsədini qarşısına məqsəd qoymuşdur, lakin onun yaradıcılığına ətraflı nəzər yetirdikdə məlum olur ki, onun yaradıcılığı modernizm-postmodernizm qovşağında yazıldığı üçün keçid dövrünün xüsusiyyətlərini özündə ehtiva edir. Yazıçı əsərlərində elmilik illüziyası yaratmaqla əslində oxucularını ədəbi oyuna dəvət etmiş olur. Yazıçının "Bəyaz İlahə" kitabının üzərindəki ilk baxışdan qədim mənbələrdən götürüldüyü təəssüratı bağışlayan təsvirlərin təhlilini verməsinə baxmayaraq, R.Qreyvsin bioqrafı S.Smit sənətkar haqqında yazılarında bildirir ki, kitabın üzərindəki təsvirlər heç bir dövrə aid deyil və sənətkarın rəssam dostlarının biri tərəfindən çəkilmişdir. Göründüyü kimi, sənətkar oxucularına oyun qurur, bu məqsədinə nail olmaq üçün tarixöncəsi qaranlıq dövrü özünün bədii təxəyyülü üçün ən uyğun dövr seçir.

Qreyvs german-skandivan miflərində dünyanın yaranması ilə bağlı hissədən bəhrələnərək bəşəriyyətin inkişafının üç mərhələsi konsepsiyasını irəli sürmüşdür. Mifdə qeyd olunur: *"Dünya yaranmamışdan əvvəl o, Ginnunqaqap adlı dərin və qara uçurumdan ibarət idi. Bu uçurumun bir tərəfində Niflheym adlı buz səltənəti*

*(qadın başlanğıcı hesab edilir), digər tərəfində isə Muspellheym adlı od səltənəti vardı (kişi başlanğıcı hesab edilir). Niflheym səltənətində Hvergelmir adlı bulaq vardı və bu bulaqdan 12 ədəd güclü su axını (Elivaqar) öz mənbəyini götürərdi. Uçurumun hər iki tərəfi birləşərək ən əvvəl dünyada ilk canlı sayılan İmiri və sonradan Audumla adlı bir düyəni əmələ gətirir. İmirin tərindən bir cüt canlı, kişi və qadın yaranır. Bu cütlükdən bir oğlan uşağı yaranır. Bunlar ilk qırovlu nəhənglər (hrimturslar) idilər”* [7]. Birinci mərhələ "Egey dini"nin və Ana – İlahə kultunun hakim mövqeyə malik olması və atalıq anlayışının hələ meydana gəlməməsi ilə səciyyəvi idi.

R.Qreyvsin “Olimp dövrü” adlandırdığı ikinci mərhələ birinci mərhələdəki balans və vəhdətin pozulması kimi qələmə verilən, özünü Ata-Allah və ya İldırım-Allah elan edib Bəyaz İlahə (Üçlü İlahə) ilə izdivaca girmək, ilahi oğul və qızlarını dünyaya gətirtmək, öz nəslini davam etdirərək ağalığı əlinə almaq niyyətindədir. Beləcə, onun nəslindən olan Ulduz-oğul Ana-İlahənin valideynlik statusunu inkar edib, özünü kosmosun ali idarəçisi elan edir. Ulduz-oğul özünün qadın keyfiyyətlərinə etiraz etməklə labüd olaraq incəsənət və poeziyanın da düşməninə çevrilmiş olur.

Üçüncü mərhələ patriarxatı tamamilə özündə ehtiva edən, İlahə ilə bütün mövcud bağları ayıran və ali varlıq kimi kişi şəxsiyyətinin qəbul edildiyi, maskulin fikirləri və hərəkətləri özündə ehtiva edən, qadını implisit şəkildə itaətində saxlayan kişi kahinləri tərəfindən idarə olunmağa başladı.

Göründüyü kimi, sənətkar bəşəriyyəti simvolik şəkildə üç mərhələyə bölür və simvolik obrazlardan istifadə edərək, dəyişikliklərin hansı mərhələdən hansı mərhələyə gəlib çatdığını vurğulayır, bunu bədii təxəyyülünün gücündən istifadə edərək ifadə edir. O, müasir dövrün gerçəkliyini – ümidsizlik, təşviş, qorxu, yadlaşma və s. durumu patriarxat ağalığının, intellektin, Apollon başlanğıcının dominantlığı ilə əlaqələndirirdi.

Qreyvs iddia edir ki, şairlərin yeni inancına görə, xristianlığın patriarxat dini artıq bəşəriyyətin dini instinktlərini təmin edə bilməzdi, bunun üçün ezoterik ənənənin gövdəsində yetişən,

---

[7] German-skandinav mifologiyası: [Electronic resource] / URL: https://az.wikipedia.org/wiki/German-skandinav_mifologiyas%C4%B1

bəşəriyyətin dini şüuruna hakim ola biləcək qədim tanrıların meydana atılması üçün vaxt gəlib çatmışdır. Bu baxımdan Robert Qreyvsin apokaliptik səciyyə daşıyan "Bəyaz İlahə" əsəri mövcud dini və sosial nizamı devirəcək və Böyük İlahənin qədim dininə əsaslanan yeni tanrının və yeni dünya nizamının başlanğıcının yaxınlaşmasını elan edəcəkdir.

III fəslin ***"R.Qreyvsin "Yunan mifləri" əsərində antik yunan miflərinə özünəməxsus yanaşması və mifologiya problemi"*** adlı ikinci paraqrafında "Yunan mifləri" romanında antik yunan mifologiyasının təcəssüm xüsusiyyətlərini araşdıraraq qeyd edir ki, bu əsərində də Bəyaz İlahənin izləri özünü göstərməkdədir. Yunan mifologiyasını ehtiva edən çoxtərkibli külliyyatının cüzi bir qismini təşkil edən Krit, Misir, Fələstin, Frigiya, Babil və bu kimi digər mənbələrdə Ximera ilə bağlı mif "təmiz" mif kimi təsnif olunmuşdur. "Təmiz" mif xalq bayramlarında istifadə olunan ritual miflərinin stenoqrafik qeydləri ilə müəyyən olunur. Bu qeydlərə, əsasən, məbəd divarlarının, qalxanların, vazaların, möhürlərin, kasaların, güzgülərin, sandıqların üzərində rast gəlmək mümkündür.

Qreyvsə görə, "təmiz" mif digər janrlardan:

1) Fəlsəfi alleqoriyadan (Hesiodun kosmoqoniyasında olduğu kimi);

2) Mifin etioloji izahından (Admetin şir və qabanı öz arabasına qoşmasında);

3) Satira və ya parodiyadan (Silenin Atlantidi təsvir etməsində);

4) Sentimental pritçadan (Narçis və Exonun hekayəsində);

5) Tarixi belletristikadan (Arionun delfinlərlə sərgüzəşt-lərində);

6) Sevgi hekayəsindən (Kefal və Proktidin hekayəsində);

7) Siyasi propaqandadan (Attikanın Tesey tərəfindən birləşdiri-məsində);

8) Əxlaqi rəvayətlərdən (Erifilanın boyunbağısı ilə bağlı povestində);

9) Yumoristik lətifələrdən (Herakl, Omfala və Panın iştirakı ilə "yataqotağı" farsında);

10) Teatr melodramından (Festor və qızları haqqında povestdə);

11) Qəhrəmanlıq dastanından (əsasən "İlida"nın əsas məzmunundan istifadə olunur);

12) Realistik nəsrdən (Odisseyin feaklara səyahətinin təsvirində) fərqlənməlidir[8].

Qreyvsin fikrincə, ümumilikdə mifin ilkin variantının axtarışı zamanı üstünlük ən qədim tarixə malik olan mənbəyə verilir. Məsələn, Kallimaxdan (İsgəndəriyyə dövründə yaşamış), Ovididən (Avqustun dövründə yaşamış), bizanslı Çeçdən əldə olunan mənbələr, çox güman ki, Hesiodun, yunan faciə yazarlarının əsərləri ilə müqayisədə mifin daha erkən variantına uyğun gəlir. Belə ki, XIII əsrə məxsus "Excidium Troiae" ("Troyanın məhvi") əsəri "İliada"dan daha çox mifoloji təsir bağışlayır. Qreyvs mifi və psevdo-mifi ayırd etmək üçün təhkiyədəki adlara, mifin hansı xalqa məxsus olmasına və qəhrəmanların talelərinə xüsusi fikir verməyi zəruri hesab edir. Yunan mifologiyasının qaynağını müəyyən etmək üçün uzaq Şimaldan və Şərqdən patriarxat arilərin Avropaya işğalçı yürüşlərindən əvvəlki dövrdə siyasi və dini sistemləri üzə çıxarmaq ilk addım ola bilər. Əldə olunmuş, dövrümüzə gəlib çatmış artefaktlardan, miflərdən çıxış edərək söyləmək olar ki, Neolit dövrünün Avropası homogen dini ideyalar sisteminə malik olmuşlar. Əsərin başqa bir hissəsində Olimp sistemi sonralar ellinizm və ellinizməqədərki təsəvvürlər arasında güzəştə getməli oldu. Zevs və Heranın idarə etdiyi altı allah və altı ilahədən ibarət ailə Babil tərzində Allahlar Şurasını təşkil edir, formalaşdırırdılar. Lakin ellinizməqədərki əhalinin üsyan qaldırdığı zaman (İliadada Zevs əleyhinə sui-qəsd olaraq təsvir olunur) Heranın Zevsə tabe olması, Afinanın "hər şey Ata üçün" deməsi ilə Dionis Şurada Hestianı yerindən kənarlaşdırmaqla kişilərin üstünlüyü ələ almasına əminliyini bildirmiş oldu. Beləcə, patriarxat xətti mif yaratma prosesini tarixi əfsanə ilə əvəz etmiş və bu dünyada tarixi təcrübə olaraq dəyərləndirilmişdir.

---

[8] Graves, R. The Greek Myths. Middlesex / R.Graves. – England: Penguin Books. – 1960: revised. – p.7-8

Dissertasiyanın III fəslinin ***“Mən Klavdi” və “Tanrı Klavdi” romanlarında trikster və mədəni qəhrəman arxetiplərinin dialektikası”*** adlı üçüncü paraqrafında diqqəti cəlb edən problemlərdən biri olaraq, trikster arxetipinin sənətkarın adı çəkilən romanları kontekstində şərh olunmasıdır. Qeyd olunur ki, hər mədəniyyət spesifikasından asılı olaraq, özünəməxsus trikster arxetipinə malik olsa da, triksterləri birləşdirən bir çox ümumi cəhətlər mövcuddur. Mifologiya, ədəbiyyat və eləcə də, dində trikster arxetipi (allah, ilahə, ruh, insan, antromorf varlıq qismində) yüksək intellekt və ya gizlin bilikləri özündə ehtiva edir, bunlardan kələk gəlmək və ya dünya nizamına qarşı çıxmaq, etiraz xarakterli şərti davranış nümayiş etdirmək məqsədi ilə istifadə edir. K.Q.Yunq triksterin nümayiş etdirdiyi hərəkətlərin arxasında hərəkətverici qüvvələrin, səbəblərin dayandığını, lakin bunların aşkar şəkildə özünü büruzə verməməsini vurğulayır. Bu cür davranış nümayiş etdirən personajlara Şeksprin “Gecəyarı yuxusu”nda Pak, “İyirminci gecə” əsərində Viola, “Cek və paxla tağı”nda Cek, “Min bir gecə” əsərində Şəhrizad, Bibliyada Yaqub peyğəmbər, Yaxın Şərq folklorunda Molla Nəsrəddin, C.K.Roulinqin “Hari Poter” əsərində Pivz, Fred, Corc Uisli və s. obrazlar bariz nümunədirlər. R.Qreyvs yunan mədəniyyətinin universallığını sübuta yetirmək üçün Roma tematikasına müraciət etmiş və “Mən Klavdi”, “Tanrı Klavdi” romanlarını yazmışdır. Bu baxımdan onun mifoloji düşüncəsi yeni ölçülər və dərinlik kəsb edir. Romanda K.Yunqun trikster arxetipi konsepsiyasının təcəssüm xüsusiyyətlərinə rast gəlmək mümkündür. Bu baxımdan Livia, Kaliqula, Klavdi personajları xüsusi əhəmiyyət kəsb edir. Adları çəkilən personajlar trikster xislətinə malik olduqları üçün bədii əsərə təbii şəkildə daxil olur. Beləcə, R.Qreyvsin bu romanları onun özünəməxsus mifologiyasını təbii şəkildə tamamlayır. Bu onunla əlaqədardır ki, Qreyvs Roma mifologiyasından müvəqqəti olaraq imtina edərək, Roma tarixinə müraciət edir və beləcə, o nəinki tarixə, eləcə də mifologiyaya, ümumiyyətlə insan düşüncə tərzinə xas olan trikster və mədəni qəhrəmanın xüsusiyyətlərini üzə çıxarır.

K.Yunq “Arxetiplər və kollektiv şüursuzluq” kitabında trikster arxetipinə münasibət bildirmişdir: *“Trickster is a collective shadow*

*figure, the summation of all the inferior traits of character in individual"*[9]. (*Trikster kollektiv kölgə obrazıdır və fərddəki bütün alçaq, qəbul olunmayan xüsusiyyətlərin vəhdətidir.*) Yazıçı tarixi mövzuya müraciət etməklə *"mifdən tam təcridlənməyən, lakin mahiyyətcə yeni mərhələ olan"* romanında iki meyili özündə əxz etmiş olur – *"mifin tarixiləşdirilməsi və tarixin mifləşdirilməsi"*[10].

III fəslin ***"Homerin qızı" modernizmdən postmodernizmə keçid dövrünün romanı kimi"*** adlı dördüncü paraqrafında modernizm və postmodernizm sərhədlərinin "görüşü", delimitasiyası baxımından əsərin təhlili ön plana çəkilir. "Homerin qızı" romanı modernizmdən postmodernizmə keçid dövründə yazıldığı üçün həm modernizmin, həm də postmodernizmin elementlərini özündə ehtiva edir. Modernizmlə postmodernizm arasındakı sərhəd bir çox hallarda qeyri-müəyyən olaraq qalır. Postmodernizmin modernizmdən müəyyən bir qopma, yoxsa onun davamı kimi qiymətləndirilməsi davamlı nəzəri müzakirə mövzusudur. Belə ki, modernizm bədii və estetik fenomen kimi cəmiyyətdə hökm sürən ənənəvi dəyərlərə qarşı çıxaraq, dünyanı yenidən yeni prinsiplər əsasında qurmaq istəyini ifadə edir və dünyanı olduğu kimi təsvir edən, əks etdirən mimetizmə etirazını bildirir. Dünyanı yeni prinsiplər əsasında yenidən qurmaq arzusunu reallaşdırmaq missiyası ədəbiyyatda yaradıcı müəllifin üzərinə düşür və onun maksimal subyektivliyini məqsəd kimi görən üslub kultuna meydan açır. Postmodernizm isə bir az daha irəli gedərək, özündən əvvəlki elm, dünya fəlsəfəsi və mədəniyyətini inkar etmək əvəzinə, onu yenidən dəyərləndirməyi üstün tutur. Romanda postmodernizmin estetikasının xüsusiyyətlərindən sayılan janr qarışıqlığı, o cümlədən, ərsəyə gətirmə prosesində Qreyvs Homerin buraxdığı "səhvləri, qüsurları" düzəltmək üçün əlinə düşən fürsətdən istifadə edir və təhkiyədə bütün imkanlarını ustalıqla səfərbər edir. Bu baxımdan qeyd etmək olar ki, "Homerin qızı" romanı modernizmdən postmodernizmə keçid dövründə qələmə

---

[9] Jung, C. The Archetypes and the Collective Unconscious / C. Jung. – Priceton University Press. – 1969. – p.270

[10] Hacılı, A.A. Zaman və onun poetik mifik qavrayışı // Elm və həyat. – 1985. №10, – s. 21.

alındığı üçün hər iki ədəbi-estetik “izm”lərin bədii xüsusiyyətlərini, elementlərini özündə ehtiva edir.

Dissertasiyanın **“Nəticə”** hissəsində aparılan tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və əldə olunmuş nəticələr aşağıdakı kimi təqdim edilmişdir.

– Beləliklə, təqdim olunmuş dissertasiyada XX əsr ədəbiyyatında mifologiyaya müraciətin xüsusiyyətlərinin konseptual olaraq araşdırılması onun çoxtərəfli dinamikasını üzə çıxartdı;

– Dünyanın mifoloji dərkolunma prosesi bir tərəfdən universal, digər tərəfdən lokal, bir tərəfdən fövqəlzaman, digər tərəfdən müasir, bir tərəfdən mücərrəd, digər tərəfdən konkret olaraq öz missiyasını yerinə yetirə bilmək iqtidarındadır;

– Tədqiqatda dünyanın ilk dərk olunma forması kimi mifin təbiətinə xas olan əsas cəhətlər araşdırılaraq XX əsrdə dünya ədəbiyyatında mifə marağın səbəbləri üzə çıxarılmışdır;

– Mifologiyanın konkret zaman kontekstində ortaya qoyduğu bu problemi R.Qreyvs özünəməxsus üsul və vasitələrlə həyata keçirməyə cəhd etmişdir;

– Mədəniyyətlərin qlobal təmasında fərqli mədəniyyətlər bütün özünəməxsusluqları ilə iştirak edir, özünün zənginliyi və bənzərsizliyi ilə başqa mədəniyyətlərlə dialoq zonasına daxil olur, bu əslində qloballaşmanın müsbət tərəfidir, lokal mədəniyyətlərin dünyamiqyaslı ünsiyyəti nəticəsində ayrı-ayrı milli-mədəni faktların kultoroloji kollajı ortaya çıxmış olur. Önəmli olan bu kollajın özünün heterogen (müxtəlifcinsli) məzmununu qorumasıdır. Qlobal mədəni ünsiyyətin başqa bir tərəfi isə “eyniləşdirmə” cəhdinin qaçılmazlığıdır. Milli-mədəni kodların homogen (eynicinsli) tərkibə uyğunlaşdırılması, təsiretmə qabiliyyəti daha yüksək olan mədəniyyətin təzyiqinə düçar olması həmin tərəfin əsas göstəriciləridir. Olduqca diqqətli yanaşma tələb edən belə bir məqamda seçimlər müstəsna rol oynayır. Universallıq və milliliyin təmasının nəticələrini qabaqcadan təyin etmək çətin məsələdir, amma bu təmasın mahiyyətini və prinsiplərini öyrənmək və şərh etməklə prosesə istiqamət vermək mümkündür;

– İngilis ədəbiyyatşünaslığı kontekstində mifoloji motivlərin R.Qreyvs yaradıcılığında tədqiqi göstərdi ki, XX əsrin gətirdiyi

qloballaşma və mədəniyyətlərin konvergensiyası şəraitində ayrı-ayrı ədəbiyyatların bir-birinə bənzəmək tendensiyası sürətlənir, eyni zamanda onların nüvəsində bir-birindən fərqlənən konkret elementlər üzə çıxır. Qlobal mədəni-mənəvi təmas müxtəlif ədəbiyyatların fərqli və oxşar cəhətləri aşkara çıxaran şəraiti təmin edir, bu zaman ədəbiyyatlar zaman və məkan koordinatlarına bağlı göstəricilərlə yanaşı, nüvəsindəki mifoloji təfəkkürün də müqayisə predmetinə çevirir, bu da həmin ədəbiyyatın unikallığının göstəricisinə çevrilir;

– Ədəbiyyat mədəniyyətin əsas dominant fiqurlarından biridir, mənsub olduğu milli-mədəni-mənəvi kontekstin bütün kod və işarələrini özündə daşıyır, milli kimliyin yaddaşından törəmə qabiliyyəti ilə seçilir, eyni zamanda yeniliklərə daim açıqdır, təxəyyülün sərhədsizliyində formalaşır, miflə, mifik düşüncə ilə sıx şəkildə bağlıdır. Mif isə mədəniyyətin və ədəbiyyatın nüvəsindəki enerjidir, bu enerji dinamikdir, milli-etnik ənənə zəncirində insana dair müxtəlif mədəni-mənəvi və psixoloji aktların yaranmasında hərəkətə gətirən qüvvədir;

– Mifologiya yalnız mif və genezisdə ona bağlı folklor mətnlərində arxaik çağ insanlarının düşüncələrinin izləri kimi yaşamaqla qalmamış, o həm də hər bir mədəniyyətin özülünü müəyyən edən düşüncə hadisəsi olduğunu sübut etmişdir. Etnik-mədəni ənənənin dəyərlərinin daşıyıcısı olan düşüncə və davranış qəlibləri də məhz mifologiya ilə müəyyənlik qazanır. Bu gün belə bəlli bir topluluğun, etnik-mədəni birliklərin düşüncə və davranış tərzlərinin əsasında mifologiyadan gələn stereotiplər, mifik dünya modelinin qəlibləri dayanır. Bu mənada etnik-mədəni ənənənin mifologiyada müəyyənləşən, kodlaşan və proqramlaşan başlıca cizgiləri həmin xalqın var olduğu müddət boyu qüvvədə qalır;

– Dünyanın dərk olunması forması kimi mifin rolu müəyyənləşdirilmiş, ingilis ədəbiyyatının təkamülünün müxtəlif dövrlərində mifə müraciətin spesifikası araşdırılaraq nüvəsini matriarxat təşkil edən german mifologiyasının R.Qreyvsin yaradıcılığında təcəssümü üzə çıxarılmışdır;

– R.Qreyvsin yaradıcılığında bəşəriyyətin inkişafının mifoloji konsepsiyası mərhələlər şəklində əsaslandırılmışdır;

– R.Qreyvsin yaradıcılığında Bəyaz İlahə konsepsiyasının simvolikası və mifik düşüncə ilə bağlılığı bədii-fəlsəfi mahiyyət kəsb edir;

– R.Qreyvsin "Yunan mifləri" əsərində antik yunan miflərinin semantik və simvolik şərhinin müasir insan psixoloji ovqatı və mental düşüncə tərzi ilə müqayisəli təhlili tədqiq edilmişdir;

– "Mən Klavdi" və "Tanrı Klavdi" romanlarında trikster, mədəni qəhrəman arxetiplərinin dialektikası mövcuddur;

– Yazıçının tarixi romanlarında mifoloji qəhrəman simvolikası tarixilik və müasirlik kontekstində analitik təhlilin predmetinə çevrilmişdir;

– R.Qreyvsin "Homerin qızı" romanı modernizmdən postmodernizmə keçid dövrünün xüsusiyyətləri baxımından xarakterikdir.

***Dissertasiya işinin əsas məzmunu və müddəaları aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır.***


1. Mifik təfəkkürdə zamanın inikas xüsusiyyətləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri - 2018" mövzusunda Beynəlxalq konfrans. – Bakı: Azərbaycan Universiteti, – 14 may, – 2018, – s.244-247.
2. Проблема ассимиляции противоположностей в концепции Роберта Грейвса «Белая Богиня»" //– Украина: Житомир. Вісник Житомирського державного університету імені Івана Франка, – 2018. Випуск 2 (88), – с.50-54.
3. Robert Qreyvs yaradıcılığında yunan miflərinin əks şərh prosesi // – Bakı: Azərbaycan Universiteti, "İpək yolu", – 2020. №4, – s.94-98.
4. Dialectics of trickster and cultural hero archetypes // 9th International Istanbul Scientific Research Congress. Türkiye: İstanbul. – 14-15 May, – 2022, – p.416-419.
5. "Mən Klavdi" və "Tanrı Klavdi" romanlarında trikster və mədəni qəhrəman arxetiplərinin dialektikası // – Bakı: Azərbaycan Universiteti, "İpək yolu", – 2022. №2, – s.136-143.

6. Robert Qreyvsin ədəbi-bədii yaradıcılığında “bağırtı” simvolik obraz kimi //– Bakı: Azərbaycan Dillər Universiteti, “Dil və ədəbiyyat”, – 2022. №4, –s. 94-101.
7. XX əsrdə ədəbiyyatda mifə müraciətin spesifikası // Gənc Tədqiqatçıların VI Respublika Elmi-Praktik Konfransının materialları. – Bakı: Azərbaycan Universiteti, – 10 mart, – 2023, – s.90-92.
8. “Homerin qızı” modernizmdən postmodernizmə keçid dövrünün romanı kimi // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2023. №2, – s.326-332.

Dissertasiyanın müdafiəsi 16 yanvar 2025-ci il tarixində saat 12.00 Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "16" dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.12.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 37 424 işarə

Tiraj: 100 nüsxə